KPMG

# Legislative Update Newsletter

## December 1, 2022



Overview of recent changes in the Azerbaijani legislation which could materially impact your business

## Tax and Legal Services

### 1. Electric vehicles will be exempted from customs import duties

**Document:** Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan on amending the "Goods nomenclatures, customs import and export duties rates of the Republic of Azerbaijan" approved by the Resolution of the Cabinet of Ministers no. 500, dated November 17, 2017 ("Resolution")

**Date of signing:** November 10, 2022

**Commentary:** According to the Resolution, electric vehicles, which are imported to the territory of the Republic of Azerbaijan and production dates of which do not exceed 3 years will be exempted from customs import duties.

Additionally, second and third level electric energy chargers will not be subject to customs import duty.

The Resolution will enter into force after 30 days of its publication date.

### 2. Electronic Government Data System is merging with the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan

**Document:** Decree of the President of the Republic of Azerbaijan on amending the decrees on "Improvement of administration in the electronic government field and organisation of activity of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan" no. 706, dated September 5, 2012, "Some measures regarding the improvement of administration in the field of digital development and transport in the Republic of Azerbaijan" no. 1785, dated January 12, 2018, "Measures regarding development of electronic government and transformation to digital government" no. 1885, dated March 14, 2018, "Approval of Rules on "Formation, conduct, integraton and archiving

of state data resources and systems" and some measures regarding the electronic government" no. 263, dated September 12, 2018 ("Decree")

**Date of signing:** November 24, 2022

**Commentary:** According to the Decree, the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan has been assigned for implementation of state policy and regulation in the field of electronic government, as well as organization and coordination of activity in the field of electronic government.

The Decree also envisages the reorganization of Innovation and Digital Development Agency under the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan by way of merger of Electronic Government Development Center under the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan public legal entity with it.

Electronic Government Data System (including "E-gov", "MyGov" portals and subsystems of Electronic Government Data System), "Digital executive authority" portal, National Information Exchange system ("ASAN Bridge"), Single Access System ("ASAN Login"), "ASAN Finans" system, "Single registry of state data resources, systems and electronic services" and Registry of Data Sources, "Permission obtainment and monitoring system", as well as primary and ancillary data systems related to such systems and registries are transferred to the balance of the Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan from the balance of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan with their respective technical-technological infrastructure within 3 months.

Furthermore, the Cabinet of Ministers of the Republic of Azerbaijan has been assigned with involving an international consulting firm to prepare the "Digital Code of the Republic of Azerbaijan" based on the international and local experience and submit to the President of the Republic of Azerbaijan within 9 months.

Decree entered into force on November 25, 2022.

## 3. Amendments have been made to information which is considered while determining the employee's compatibility with his/her position

**Document:** Law of the Republic of Azerbaijan on the amendments to the Labour Code of the Republic of Azerbaijan ("Law")

**Date of signing:** November 5, 2022

**Commentary:** Further to the Law, arranging additional education of employees at additional education institutions for the purposes of development of employees' level of professional training, acquiring new qualifications, as well as improvement of their qualifications have been defined as the main rights of the employers.

Moreover, the results of professional training, acquiring a new qualification and improvement of the qualification of an employee during the last 5 (five) years will be taken into account when determining the suitability of the employee for the position he/she holds.

The Law entered into force on November 25, 2022.

## 4. Azerbaijan has joined the Convention on Service Abroad of Judicial and Extrajudicial Documents in Civil or Commercial Matters

**Document:** Law on "Ratifying the Convention on the Service Abroad of Judicial and Extrajudicial Documents in Civil or Commercial Matters" ("Law")

**Date of signing:** September 30, 2022

**Commentary:** As per the Law, Azerbaijan has joined the Convention on the Service Abroad of Judicial and Extrajudicial Documents in Civil or Commercial Matters. The Convention envisages establishment of appropriate means to ensure timely delivery of judicial and non-judicial documents to be submitted abroad to the attention of the addressee.

The Law entered into force on November 17, 2022

## 5. Compulsory insurance contracts will be formed electronically

**Document:** Law of the Republic of Azerbaijan on "Making amendments to the Law of the Republic of Azerbaijan on 'Compulsory insurance'" ("Law")

**Date of signing:** October 18, 2022

**Commentary:** As per the Law, compulsory insurance contract will be concluded by way of provision of particular compulsory insurance certificate, which has been drafted in the form of electronic document and certified by enhanced electronic signature, to the insured.

Compulsory insurance certificate that has been issued in paper form by the time the Law enters into force will be considered equal to the one, which has been drafted in the form of electronic document. In cases where compulsory insurance certificate that has been issued in paper form is lost, destroyed or become unfit, the insured is provided with compulsory insurance certificate, which has been drafted in the form of electronic document instead of its duplicate.

The Law entered into force on November 13, 2022.

## 6. Azerbaijan has joined the Additional Protocol of the "Convention on International Carriage of Goods by Road"

**Document:** Law of the Republic of Azerbaijan on "Joining the Additional Protocol on 'Electronic Consignment Note' of the Convention "On International Carriage of Goods by Road" ("Law")

**Date of signing:** October 21, 2022

**Commentary:** Additional Protocol on 'Electronic Consignment Note' of the Convention "On International Carriage of Goods by Road" became effective in June 2011. The main essence of the Additional Protocol is to create the possibility of drawing up an international consignment note in electronic form. The e-CMR is an alternative to the paper-based CMR and does not replace it. The advantages of using e-CMR include facilitating document flow and ensuring the accuracy of data entered.

The law entered into force on November 5, 2022.

### 7. New requirements are defined for chief accountants of public legal entities and budget organizations

**Document:** Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan on making amendments to the Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan no. 464, dated October 25, 2018 “On determination of terms and consistency of obtainment of professional accountant certificate by chief accountants of legal entities, shares (stakes) of which are controlled by the state, public interest entities (excluding the legal entities trading their securities on stock exchanges), large and medium business entities, budget organizations and public legal entities that publish annual financial statements or consolidated financial statements” (“Resolution”)

**Date of signing:** November 1, 2022

**Commentary:** According to the Resolution, chief accountants of public legal entities and budget organizations that publish annual financial statements or consolidated financial statements, who are hired after January 1, 2023, are required to have appropriate professional accountant certificates.

The Resolution entered into force on November 2, 2022.

### 8. The term of the work permit can be extended for up to 2 years each time in relation to those involved in labour activities in the liberated territories of the Republic of Azerbaijan

**Document:** Draft Law on making amendments to the Migration Code of the Republic of Azerbaijan (“Draft Law”)

**Commentary:** As per the Draft Law, the term of the work permit for foreigners or stateless persons involved in labor activities in the liberated territories of the Republic of Azerbaijan during the period from January 1, 2023 to January 1, 2028 can be extended up to 2 years each time.

In addition, the labor migration quota approved by the Cabinet of Ministers of the Republic of Azerbaijan will not be applicable to foreigners or stateless persons involved in labor activities in the liberated territories.

### 9. Additional concessions and privileges will be applied to specialists working in areas liberated from occupation

**Document:** Draft Law on making amendments to the Labour Code of the Republic of Azerbaijan (“Draft Law”) (second reading)

**Commentary:** Further to the Draft Law, a specialist working in the territories of the Republic of Azerbaijan liberated from occupation is a person who has a document confirming professional, secondary qualification and higher education and has at least 24 months of work experience during the last 60 months and works on the basis of an employment contract (agreement) in the territories of the Republic of Azerbaijan liberated from occupation (except for persons of special rank).

Specialists working in the territories of the Republic of Azerbaijan liberated from occupation shall be granted additional vacation days for a period of 5 calendar days, regardless of the duration of the main and additional vacation days.

Specialists working in the liberated territories of the Republic of Azerbaijan will have the right to use the concessions and privileges provided for in the Labor Code and other laws of the Republic of Azerbaijan in cases where the following conditions coexist:

- when the employer with whom the specialists concluded an employment contract is registered for taxation purposes in the liberated territories of the Republic of Azerbaijan;
- when the workplace of specialists is located in the liberated territories of the Republic of Azerbaijan under the employment contract (contract);
- when specialists settle in the liberated territories of the Republic of Azerbaijan.

## 10. The draft Law of the Republic of Azerbaijan "On Public-Private Partnership" was submitted to the first reading

**Document:** Draft Law of the Republic of Azerbaijan "On Public-Private Partnership" (“Draft Law”)

**Commentary:** The draft law defines the organizational, legal and economic basis for the implementation of activities in the field of public-private partnership.

According to the draft law, the state's participation in public-private partnership projects will not exceed 49%.

In addition, the Draft Law envisages provisions in relation to public-private partnership projects, terms and criteria for choosing winner of tenders, main terms of public-private partnership agreement, preparation and implementation of public-private partnership projects, as well as establishment of electronic database with respect to completed and ongoing public-private partnership projects and reports on their implementation status.

The Draft Law also defines the following state support and guarantees that can be given to a private partner:
- organization of the provision of goods, materials, raw materials, equipment for the implementation of the public-private partnership project;
- ensuring the minimum level of revenues of the public-private partnership project;
- assurance of the purchase of certain volumes of the products produced, the services provided, and the works performed within the framework of the public-private partnership project;
- provision of subsidies and (or) loans, capital investment;
- ensuring the level of regulated prices;
- granting exclusive rights to provide services, perform works, sell products in the territory of the Republic of Azerbaijan or a part of it;
- in cases provided for in the public-private partnership agreement, compensation for the expenses incurred by the private partner and the lost benefit.

# Our key contacts



**Alexey Abramov**

Partner,
Head of Law
KPMG Law Caspian

T +7 (916) 820 5962
E alexeyabramov@kpmg.com



**Rizvan Gubiyev**

Head of Tax and Legal,
KPMG Azerbaijan

T +994 12 404 8910
E rgubiyev@kpmg.az



**Seymur Niftaliyev**

Law Practice Leader,
KPMG Azerbaijan

T +994 12 404 8910
E sniftaliyev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2022 KPMG Azerbaijan Limited, a company incorporated under the Companies (Guernsey) Law, 2008, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG global organization of independent member firms affiliated with KPMG International Limited, a private English company limited by guarantee. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International.

# Qanunvericiliyə Dair Mühüm Dəyişikliklər

*1 dekabr 2022-ci il*



Biznes fəaliyyətinizə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək Azərbaycan qanunvericiliyinə edilən son dəyişikliklərin icmalını Sizin diqqətinizə çatdırırıq.

## Vergi və Hüquq Xidmətləri

### 1. Elektrik mühərrikli minik avtomobilləri idxal gömrük rüsumlarından azad olunur

**Sənəd:** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ("Qərar")

**İmzalanma tarixi:** 10 noyabr 2022-ci il

**Şərh**: Qərara əsasən Azərbaycan Respublikası ərazisinə idxal olunan zavod buraxılış tarixindən 3 ilədək müddət ötmüş və yalnız elektrik mühərriklə hərəkətə gətirilən minik avtomobilləri idxal gömrük rüsumlarından azad olunacaq.

Bundan əlavə, elektrik mühərrikli avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularına da idxal gömrük rüsumları tətbiq olunmayacaq.

Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

### 2. Elektron Hökumət İnformasiya Sistemi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin balansına verilir

**Sənəd:** Elektron hökumət sahəsində idarəetmənin təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi

tədbirlər haqqında” 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” 2018-ci il 14 mart tarixli 1885 nömrəli və “Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında” 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“Fərman”)

**İmzalanma tarixi:** 24 noyabr 2022-ci il

**Şərh**: Fərmana əsasən elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimləməsinin həyata keçirilməsi, o cümlədən fəaliyyətin təşkili və əlaqələndirilməsi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə edilir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (“Agentlik”) Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxsin ona qoşulması formasında yenidən təşkil edilir.

Elektron Hökumət İnformasiya Sistemi (o cümlədən “Elektron hökumət” portalı, “MyGov” portalı və Elektron Hökumət İnformasiya Sisteminin alt sistemləri), “Rəqəmsal icra hakimiyyəti” portalı, Milli Məlumat Mübadiləsi sistemi (“ASAN Bridge”), Vahid Giriş Sistemi (“ASAN Login”), “ASAN Finans” sistemi, “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri” və İnformasiya Mənbələrinin Reyestri, “İcazələrin alınması və monitorinqi sistemi”, habelə həmin sistem və reyestrlərlə əlaqəli olan digər əsas və yardımçı informasiya sistemləri üç ay müddətində texniki-texnoloji infrastrukturu ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin balansından Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin balansına verilir.

Bundan əlavə, Fərmanda beynəlxalq məsləhətçi şirkət cəlb etməklə, rəqəmsal inkişaf sahəsində beynəlxalq və ölkədaxili təcrübə əsasında “Azərbaycan Respublikasının Rəqəmsal Məcəlləsi”nin layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi Nazirlər Kabinetinə həvalə olunmuşdur.

Fərman 25 noyabr 2022-ci ildə qüvvəyə minib.

## 3. İşçinin tutduğu vəzifəyə uyğunluğu müəyyən edilərkən nəzərə alınacaq məlumatlarda dəyişikliklər edilib

**Sənəd:** Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 5 noyabr 2022-ci il

**Şərh:** Qanuna əsasən işçilərin peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi və ixtisasının artırılması məqsədilə əlavə təhsil müəssisələrində əlavə təhsilini təşkil etmək işəgötürənin əsas hüquqları arasına daxil edilmişdir.

Həmçinin, işçinin tutduğu vəzifəyə uyğunluğu müəyyən edilərkən onun son 5 (beş) il ərzində peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin və ixtisasının artırılmasının nəticələri nəzərə alınacaq

Qanun 25 noyabr 2022-ci ildə qüvvəyə minmişdir.

## 4. Azərbaycan “Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında” Konvensiyaya qoşulub

**Sənəd:** “Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında” Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 30 sentyabr 2022-ci il

**Şərh:** Qanun xaricdə təqdim ediləcək məhkəmə və qeyri-məhkəmə sənədlərinin ünvanlanan şəxsin nəzərinə vaxtında çatdırılmasını təmin etmək üçün müvafiq vasitələrin yaradılmasını nəzərdə tutur.

Konvensiyanın müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası ilə münasibətlər normallaşana qədər Azərbaycan tərəfindən Ermənistana münasibətdə tətbiq edilməyəcək.

Qanun 17 noyabr 2022-ci ildə qüvvəyə minmişdir.

## 5. İcbari sığorta müqavilələri elektron formada bağlanılacaq

**Sənəd:** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 18 oktyabr 2022-ci il

**Şərh:** Qanuna əsasən icbari sığorta müqaviləsi elektron sənəd formasında tərtib edilmiş və gücləndirilmiş elektron imza vasitəsilə təsdiq edilmiş müvafiq icbari sığorta şəhadətnaməsinin sığortalıya (müvafiq hallarda sığorta olunanlara) verilməsi yolu ilə bağlanacaq.

Qanun qüvvəyə minənədək kağız formada verilmiş icbari sığorta şəhadətnaməsi elektron sənəd formasında tərtib edilmiş icbari sığorta şəhadətnaməsinə bərabər tutulur. Kağız formada verilmiş icbari sığorta şəhadətnaməsi itirildikdə, məhv olduqda və ya yararsız hala düşdükdə sığortalıya dublikatın əvəzində elektron sənəd formasında tərtib edilmiş icbari sığorta şəhadətnaməsi təqdim edilir.

Qanun 13 noyabr 2022-ci ildə qüvvəyə minmişdir.

## 6. Azərbaycan “Beynəlxalq yük daşınması müqaviləsi haqqında” Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı” Əlavə Protokola qoşulub

**Sənəd**: "Beynəlxalq yük daşınması müqaviləsi (BYDM) haqqında" Konvensiyaya elektron əmtəə-nəqliyyat qaiməsi ilə bağlı" Əlavə Protokola qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu (“Qanun”)

**İmzalanma tarixi:** 21 oktyabr 2022-ci il

**Şərh:** “Avtomobil nəqliyyatı ilə yüklərin beynəlxalq daşınması müqaviləsi haqqında” Konvensiyaya elektron qaimə ilə bağlı Əlavə Protokol” 2011-ci ilin iyun ayında qüvvəyə minib. Əlavə Protokolun əsas mahiyyəti beynəlxalq nümunəli əmtəə-nəqliyyat qaiməsinin

elektron qaydada tərtib edilməsi üçün imkan yaratmaqdan ibarətdir. Elektron əmtəə-nəqliyyat qaiməsi kağız üzərində tərtib edilən CMR-ın alternativ formasıdır və kağız üzərində tərtib edilən CMR-ın ləğvini nəzərdə tutmur. E-CMR-ın tətbiqinin tərəflər arasında real vaxt rejimində məlumat mübadiləsinin həyata keçirilməsi, resurslara qənaət edilməsi, sənəd dövriyyəsinin asanlaşdırılması və daxil edilmiş məlumatlarda dəqiqliyin təmin olunması kimi üstünlükləri vardır.

Qanun 5 noyabr 2022-ci ildə qüvvəyə minmişdir.

## 7. Publik hüquqi şəxslərin və büdcə təşkilatlarının baş mühasibləri üçün yeni tələblər müəyyənləşdirilir

**Sənəd:** “Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri və orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsinin müddətlərinin və ardıcıllığının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 25 oktyabr tarixli 464 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Qərarı (“Qərar”)

**İmzalanma tarixi:** 1 noyabr 2022-ci il

**Şərh:** Qərara əsasən illik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin və büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dən sonra işə qəbul edilən baş mühasibləri müvafiq peşəkar mühasib sertifikatına malik olmalıdırlar.

Qərar 2 noyabr 2022-ci ildə qüvvəyə minmişdir

## 8. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb edilənlərə münasibətdə iş icazəsinin müddəti hər dəfə 2 ilədək müddətə uzadıla bilər

**Sənəd:** Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununun layihəsi (“Qanun layihəsi”) (II oxunuş).

**Şərh:** Qanun layihəsinə əsasən 2023-cü yanvarın 1-dən 2028-ci il yanvarın 1-dək olan dövr ərzində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək fəaliyyətinə cəlb edilən əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin müddəti hər dəfə 2 ildən çox olmamaq şərtilə uzadıla bilər.

Həmçinin, işğaldan azad edilmiş ərazilərdə əmək fəaliyyətinə cəlb olunan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün Nazirlər Kabineti tərəfindən təsdiq edilən əmək miqrasiyası kvotası tətbiq olunmayacaq.

## 9. İşğaldan azad olunmuş ərazilərdə işləyən mütəxəssislərə əlavə güzəştlər və imtiyazlar tətbiq oluna bilər

**Sənəd:** Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanununun layihəsi (“Qanun layihəsi”) (II oxunuş).

**Şərh:** Qanun layihəsinə əsasən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssis dedikdə peşə, orta ixtisas və ali təhsil haqqında dövlət sənədi və son 60 ay ərzində ən azı 24 ay əmək stajı olan və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində əmək müqaviləsi (kontraktı) əsasında işləyən şəxs (xüsusi rütbəli şəxslər istisna olmaqla) başa düşülür.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərə əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq 5 təqvim günü müddətində əlavə məzuniyyət verilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislər aşağıdakı şərtlər birgə mövcud olduğu hallarda Əmək Məcəlləsində və Azərbaycan Respublikasının digər qanunlarında nəzərdə tutulan güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malik olacaqlar:

- mütəxəssislərin əmək müqaviləsi (kontraktı) bağladıqları işəgötürən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə vergi uçotunda olduqda;
- mütəxəssislərin əmək müqaviləsi (kontraktı) üzrə iş yeri Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə yerləşdikdə;
- mütəxəssislər Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məskunlaşdıqda.

## 10. "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi birinci oxunuşa çıxarılıb

**Sənəd: "**Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsi (“Qanun layihəsi”)

**Şərh:** Qanun layihəsi dövlət-özəl tərəfdaşlığı sahəsində fəaliyyətin həyata keçirilməsinin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Qanun layihəsinə əsasən dövlət-özəl tərəfdaşlığı layihələrində dövlətin iştirak payı 49%-dən çox olmayacaq.
Bundan əlavə, Qanun layihəsində dövlət-özəl tərəfdaşlığı layihəsi, müsabiqə qalibinin seçilməsi şərtləri və meyarları, dövlət-özəl tərəfdaşlığı müqaviləsinin əsas şərtləri, dövlət-özəl tərəfdaşlığı layihələrinin hazırlanması və həyata keçirilməsi, o cümlədən dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində davam edən və başa çatdırılmış layihələr, layihələrin icra vəziyyətinə dair hesabatlar haqqında elektron məlumat bazasını yaradılması da nəzərdə tutulmuşdur.

Qanun Layihəsində, həmçinin, özəl tərəfdaşa verilə bilən aşağıdakı dövlət dəstəyi və təminatları müəyyən olunmuşdur:

- dövlət-özəl tərəfdaşlığı layihəsinin həyata keçirilməsi üçün mal, material, xammal, avadanlığın verilməsinin təşkili;
- dövlət-özəl tərəfdaşlığı layihəsinin gəlirlərinin minimum səviyyəsinə təminat;
- dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində istehsal edilən məhsulların, göstərilən xidmətlərin, görülən işlərin müəyyən həcmdə alınmasına dair təminat;
- subsidiyaların və (və ya) kreditlərin verilməsi, kapital qoyuluşu;
- tənzimlənən qiymətlərin səviyyəsinə dair təminat;
- Azərbaycan Respublikasının ərazisi və ya onun bir hissəsində xidmətlərin göstərilməsi, işlərin görülməsi, məhsulun satışı üzrə müstəsna hüquqların verilməsi;

- dövlət-özəl tərəfdaşlığı müqaviləsində nəzərdə tutulan hallarda, özəl tərəfdaşın çəkdiyi xərclərin və əldən çıxmış faydanın əvəzinin ödənilməsi.

Bundan əlavə, Qanun layihəsində dövlət-özəl tərəfdaşlığı layihəsi, müsabiqə qalibinin seçilməsi şərtləri və meyarları, dövlət-özəl tərəfdaşlığı müqaviləsinin əsas şərtləri, dövlət-özəl tərəfdaşlığı layihələrinin hazırlanması və həyata keçirilməsi, o cümlədən dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində davam edən və başa çatdırılmış layihələr, layihələrin icra vəziyyətinə dair hesabatlar haqqında elektron məlumat bazasını yaradılması da nəzərdə tutulmuşdur.

## Bizimlə əlaqə



**Alexey Abramov**

Partnyor,
Hüquq xidmətləri üzrə rəhbər
KPMG Law Caspian

T +7 (916) 820 5962
E alexeyabramov@kpmg.com



**Rizvan Qubiyev**

Vergi və hüquq
departamentinin rəhbəri,
KPMG Azərbaycan

T +994 12 404 8910
E rgubiyev@kpmg.az



**Seymur Niftaliyev**

Hüquq Praktikasının Lideri,
KPMG Azərbaycan

T +994 12 404 8910
E sniftaliyev@kpmg.az

www.kpmg.az

Privacy | Legal

You have received this message from KPMG Azerbaijan Limited. If you wish to unsubscribe from the Legislative Update Newsletters, please click here. If you wish to unsubscribe from all KPMG communications, please click here.

If you have any questions, please send an e-mail to office@kpmg.az.

KPMG Azerbaijan Limited, Port Baku, 12th floor, 153, Neftchilar Avenue, Baku, AZ1010, Republic of Azerbaijan

© 2022 KPMG Azerbaijan Limited, a company incorporated under the Companies (Guernsey) Law, 2008, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG global organization of independent member firms affiliated with KPMG International Limited, a private English company limited by guarantee. All rights reserved.

The KPMG name and logo are registered trademarks or trademarks of KPMG International.